Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Şairsən, nəğməkarsan, demək əbədiyyətsən

**Şairə Kəmalə Ağayevanın 85 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2022**

**Tərtibçi:** **Könül Səmədzadə**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Şairsən, nəğməkarsan, demək əbədiyyətsən** - Şairə Kəmalə Ağayevanın 85 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. S. Könül; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2022. – 26 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2022**

## Bölmə I

*Vətən gözüm nuru, könül məbədim,*
*Ona bu canımı fəda istədim.*
*Yurduma, elimə heyran olum mən,*
*Vətən daşlarına qurban olum mən.*

50-ci illərin sonu, 60-cı illərin əvvəllərində poeziyanın sərt yollarında uğurlu addımlarını atan sənətkarlarımızdan biri də respublikamızın əməkdar mədəniyyət işçisi, şairə-dramaturq Kəmalə Ağayevadır. Mənəvi saflıq, insan paklğı, dünyada əmin-amanlıq, haqq-ədalət arzuları Kəmalə şeirlərinin leytmotivliyini təşkil edir. Deyirlər ki, zəmanə ilə əlaqəsi olmayan, zəmanə ilə yaşayan sənətkar müasirlərini necə düşündürə bilər? Bu baxımdan yaşadığı dövrü bütövlükdə, həm zəif, həm də qüvvətli cəhətləri, həm mahiyyəti, həm də təfsilatı ilə ifadə edən Kəmalə poeziyasında bütöv həqiqət və bütöv həyəcan vicdan mövqeyi əsas amil olaraq qalır. Sənət həyatı düzgün göstərməli, varlığın güzgüsü olmalıdır. Həqiqət isə şeirin, sənətin ən yüksək prinsipidir. İnsan kədərini, onun sevgi və sevincini, hər şeydən uca olan Allah eşqini, dünyanın qəribə gərdişini özünəməxsus məharətlə tərənnüm edən Kəmalə Ağayeva hansı mövzuya müraciət edirsə-etsin, öz nəfəsi, öz duyğusu, öz deyim tərzi ilə fərqlənib. O həmişə düşündüyünü deyib, vicdanının hökmünə sadiq olub, ötəri-keçəri vəziyyətlərə uyğunlaşmağa çalışmayıb. Həqiqi yaradıcılıq sevinci, iztirab və axtarışlarla dolu ömür yolu, xalqa və sənətə olan böyük sədaqəti onun həyat amalına çevrilib. Məhz bu xüsusiyyətlər Kəmalə Ağayevanı sevdirmiş, ona şöhrət qazandırmışdır.

1937-ci ildə Naxçıvan şəhərində bir qız övladı dünyaya göz açdı. Erkən yaşlarından şeir yazmağa başlayan şairə, tez-tez

dövri mətbuatda müntəzəm çıxışlar etməyə başlayır. Gənclik illərində onun xalq ədəbiyyatına və musiqisinə böyük və sönməz marağı və məhhəbbəti olub. Gözəl hafizəyə malik idi. Yaradıcılığa başladığı zaman ürəyi qaynar hisslər və duyğularla dolu idi. Qəlbində min bir arzu və xəyallar dolaşırdı. Onun ilk "Hilal olaydım" şeiri 50-ci illərdə hələ Bakıda təhsil alarkən "Azərbaycan" jurnalında dərc olundu. 1958-ci ildə yenə həmin jurnalda "Gənclik" adlı şeiri çap edildi. Elə bu şeirlərə görə bir gün mərhum xalq şairləri Rəsul Rza və Məmməd Rahim Kəmalə Ağayevanı Azərbaycan Yazıçılar Birliyinə qəbul etdilər və dedilər: "Qoy Kəmalə gələcəyin Heyran xanımı olsun". Və beləliklə, şairənin 40 il ərzində susmayan qələmi daha sonralar dramaturgiyaya meyl etdi. Və elə bu gəlişi ilə də şeir kitabları ilə yanaşı "Məhsəti" pyesini qələmə aldı və bu pyes paytaxt ictimaiyyətinin böyülk marağına səbəb oldu və teatrşünaslar bu pyesin yaranması ilə ilk qadın dramaturqun Azərbaycan ədəbiyyatına gəlişi kimi qiymətləndirdilər. Daha sonralar onun "Baharın sözü", "Gül yarpağı", "Daş piyalə", "Sən olmasaydın", "Arpaçayın nəğməsi", "O dodaqlarda gözüm qaldı", "Tanrıya heyranam mən" və s. kitabları ilə yanaşı "İsmət", "O, bizim dağların oğludur", "Mənim Tanrım", "Apardı sellər Saranı", "Zərintac", "Unudulan sözlər", "Gərək çıraq haqdan yana", "Kaman səsi" və s. pyesləri yazıldı və səhnə təcəssümünü tapdı.

Bir sözlə Kəməla Ağayeva yaradıcılığına yaxından bələd olanlar bir fikirlə tam razılaşarlar ki, şairənin poeziyasında haqq sözün, daxili əqidənin, vicdani yaddaşın xeyir-duası var. Cəsarət və kövrəklik, həssaslıq və mülayimlik, təmkinlilik və ehtiras onun yaradıcılığında qəribə bir vəhdət təşkil edir. El deyimində deyilir: "Ürək yanmasa, gözdən yaş çıxmaz". Bu sözdə böyük

mənа və həqiqət var. Bu nəinki insan əməllərinin səmimiliyi, həm də sənət əsərlərinin təsir qüvvəsini müəyyən edən meyardır. Kəmalə xanımın şeirlərində, yazdığı hər bir misralarda ürəyindən qopan fəryad, dərin iztirab, ürəyinin səsi vardır. O, yana-yana bu şeirləri yazmış, bütün varlığı ilə duyaraq, düşünərək, həyəcanlanaraq hər sözü, ifadəni qələmə almışdı.

Kəmalə xanımın nəzərində Vətənini və xalqını böyük bir ürəklə sevmək, onun tərəqqisinə çalışmaq həqiqi şairin vicdani borcudur. Kəmalə Ağayeva poeziyasını səciyyələndirən xüsusiyyətlərindən biri də əsərlərində cəsarətli, ilhamlı yaradıcılıq ruhunun hakim olmasıdır. O, pyeslərində zamanın, dövrün xüsusiyyətlərini, ətrini, rəngini saxlamışdır. Onlar həm qəhrəmanların hərəkətlərində, xasiyyətində, həm də bədii təsvirdə öz əksini tapmışdır. Özünəxas üslubu, ifadə tərzi olan şairə-dramaturq Kəmalə Ağayeva pyeslərini yazarkən yalnız klassik ədəbi irsdən deyil, xalq yaradıcılığı və dastanlarımızdan, aşıq ədəbiyyatımızdan da bəhrələnmiş, Azərbaycan xalqının çoxəsrlik poetik məktəbinin ənənələrinə həssas münasibətilə seçilmişdir. Onun pyeslərinin dili həm sadə, həm də ifadəlidir. Məna ilə gözəllik, ağıllı fikirlərlə səlis ifadə vəhdət təşkil edir. Yaratdığı hər bir surət öz vəziyyətinə, həyati görüş və anlayışlarına görə düşünür və hərəkət edir.
“Tanrıya heyranam mən”- şeirində Kəmalə xanım deyirdi. O, övlad nəvazişi, nəvə qayğısı-çəkən, müharibə ocaqlarının səngiməməyindən narahatlıq, həyəcan keçirən ana idi. “Barışın, insanlar” şerində dediyi kimi:

Mənim göz yaşımı silin, insanlar!
Bu savab içində gülün, insanlar!
Daha barışığa gəlin, insanlar!..
Savaşsız bir dünya olmazmı məgər?!.

## Bölmə II
## Yubiley tədbirlərinin keçirilməsi.

Zərif duyğularının poetik şəkildə təsirli ifadəsinə, həyatın adilikləri içərisində heyrətedici məqamları görə bilməsinə və bunun nəticəsində qələmə aldığı şeirlərində insanın ruhunu dilə gətirən, ona romantik duyğular aşılayan, düşündürən Kəmalə Ağayeva Azərbaycan poeziyasında öz dəst-xəttinə malik unudulmaz söz sahiblərindən idi.

Azərbaycan ədəbiyyatında qadın şairlərimizin möhtəşəm bir sırası var: Nigar Rəfibəyli, Mədinə Gülgün, Hökumə Billuri, Mirvarid Dilbazi və nəhayət ki, Kəmalə Ağayeva... Kəmalə xanımın şeirlərini oxuyanda qeyri-ixtiyari onun müəllifinin məhz xanım olduğu açıq-aşkar duyulur. Çünki, bu şeirlərin ahəngində elə bir zəriflik, həssaslıq, həzinlik var ki, istər-istəməz bu ipək ovqatlı misraların ürək döyüntüsündə məhz qadın məhəbbətinin, həsrətinin döyüntüləri hiss edilir.

Şairə-dramaturq Ağayeva Kəmalə Ağa qızı 1937-ci il iyul ayının 7-də Naxçıvan şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1957-ci ildə sənədlərini Xarici Dillər İnstitutuna vermiş, fransız dili fakültəsini bitirmişdir. 35 il orta məktəbdə fransız dili müəllimi işləmiş eyni zamanda 30 il də Naxçıvan Dövlət Dram Teatrında ədəbi hissə müdiri vəzifəsində çalışmışdır. Kəmalə Ağayeva 1958-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan Teatr Xadimləri Cəmiyyətinin üzvü olmuşdur.

Yuxarıda qeyd etdiyimiz kimi, şairə xanım lap erkən yaşlarından yaradıcılığa başlamış, yazdığı şeirlər dövrü mətbuatda müntəzəm olaraq çap olunmuş, şeirlərinə musiqilər yazılmışdır.

Bildiyiniz kimi, bu il istedadlı, bitkin qələmə malik, gözəl insan Kəmalə Ağayevanın 85 illik yubileyi qeyd olunur. Bu münasibətlə respublikamızın bir çox təhsil ocaqlarında, məktəblərdə, kitabxanalarda yubiley tədbirlərinin keçirilməsi nəzərdə tutulmuşdur. Yubiley tədbirlərinin keçirilməsi ilə bağlı plan tutulur, plana əsasən kitabxanada ilk növbədə kitab sərgisi təşkil olunur. Kitab sərgisi əsasən kitabxananın oxu zalında müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn: "Poeziyamızın şairə xanımı-Kəmalə Ağayeva", "Ürək yanmasa, gözdən yaş çıxmaz", "Kəmalə Ağayeva - 85", " Sevilən şairə Kəmalə Ağayeva", "Şairsən, nəğməkarsan, demək... əbədiyyətsən", "Vətənə sevdalıyam" və s. "Poeziyamızın şairə xanımı-Kəmalə Ağayeva" adlı sərginin nümunəsini sizlər üçün təqdim edirik:

1. Başlıq: "Poeziyamızın şairə xanımı-Kəmalə Ağayeva"
2. Foto sərgi.
3. Kitablarının nümayişi.
4. Görkəmli insanların şair-dramaturq Kəmalə Ağayeva haqqında söylədikləri.
5. Dövrü mətbuatda çap olunmuş məqalələrin kartotekası.
6. Şeir parçası.

**Vərəq yoxsa, yarpaqlara yazaram,**
**Yarpaq yoxsa, torpaqlara yazaram.**
**Harda olsam, mən adını, ey Vətən,**
**Yaxınlara, uzaqlara yazaram.**

**Görkəmli insanların Kəmalə Ağayeva haqqında söylədikləri.**

1. 40 illik ədəbi yaradıcılığı ilə nə qədər oxunan, yadda qalan və nə qədər seviləndirsə, 60 yaşlı bir insan kimi, şəxsiyyət kimi isə bütövlüyü, tamlığıyla və səmimiyyəti ilə yaradıcılığından bir o qədər qat-qat yüksək və uca görünəndir, Kəmalə xanım.

**Kəmaləddin Qədim,**
*Şair*

2. Kəmalə Ağayeva Azərbaycan ədəbiyyatına və milli teatr tariximizə mənzum pyeslərin ilk qadın müəllifi kimi daxil olub.

**Ramiz Qasımov,**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*

3. Kəmalə Ağayeva yaradıcılığında Vətənə bağlılıq, doğma elinə-Naxçıvana məhəbbət mühüm yer tutur.

**Elxan Məmmədov,**
*Folklorşünas, dosent*

**4.** Şairə Kəmalə Ağayeva Vətən sevgisinin insan duyğularının ən alisi, ən yüksəyi və ən müqəddəsi olması qənaətini, fikrini şeirlərində yüksək bədiiliklə ifadə edir. Vətənsiz və imansız yaşamaq, bütün insani hisslərdən məhrum olmaq deməkdir. Gələcəyimiz olan övladlarımıza bu müqəddəs hissləri aşılamaq, Vətən sevgisi ilə alovlandırmaq və onu qorumağı öyrətmək şairənin əsas amalıdır.

**Günay Şirəliyeva,**
*filologiya üzrə fəlsəfə doktoru*

## Kitablarının nümayişi:
















Kəmalə Ağayeva yaradıcılığını yaxından izləmək üçün keçirləcək tədbirlərdən biri də ucadan oxudur. Ucadan oxu oxucular arasında ən çox sevilən tədbirlərdən biridir. Kəmələ xanımın yaradıcılığında uşaqlara olan məhəbbətin, sevginin bariz nümunəsi olan “Əsgər andı”, “Ana dilim”, “Azərbaycan”, “Müəllimim”, “Gözəl olsun uşaqlar” və s. şeirlərini misal göstərmək olar. Gəlin birlikdə “Gözəl olsun uşaqlar” adlı şeirini oxucuların ifasında dinləyək. Belə şeirlərin ucadan oxunuşunu keçirmək, kiçik yaşlarından oxucuda şeirə sevgi, onu duymaq,

başa düşmək, şeiri gözəl söyləmək bacarığını artırmaqdan ibarətdir.

İnsanlar gül kimidir,
Bir gün onlara da solar.
Uşaqlar, bu dünyada
Yalnız yaxşılıq qalar.

Hər an mehriban olun,
Qocaya həyan olun
Ədəb-ərkan gözləyin,
Siz gözəl insan olun.

Dosta sadiq olun ki,
Dar gündə gərəkdir o,
Elə təmiz olun ki,
Desinlər mələkdir o

Danışmayın yalanı,
Yalan xəcalət eylər,
Siz danışın olanı,
Düzlük səadət eylər.

Tanrını unutmayın,
Odur bizi yaradan.
Əyri yolu tutmayın,
Seçin ağı qaradan.

Ay sevimli uşaqlar,
Hər an mehriban olun,
Gözəl yaşamaq üçün,

Siz gözəl insan olun.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasında Kəmalə Ağayevanın 85 illik yubileyi ilə bağlı keçirilən tədbirlərdən biri də ədəbi-bədii gecədir. Ədəbi bədii gecəyə kitabxanaçı bir ay qabaqcadan hazırlaşır. Beləki, ilk əvvəl tədbirin ssenarisi hazırlanır, tədbirə qonaqlar dəvət olunur. Tədbirdə şairə xanımın qələm yoldaşları, şair və yazıçılar, məktəb və lisey şagirdləri, universitet tələbələri iştirak edir. Ssenariyə əsasən ədəbi hissədə şairə xanımın haqqında çıxış və məruzələr dinlənilir, haqqında hazırlanmış slayd göstərilir, ikinci hissədə, yəni tədbirin bədii hissəsində Kəmalə Ağayevanın qələmə aldığı, hekayə, pyes, romanlarından səhnəciklər göstərilir, saf və təmiz duyğu ilə yazdığı şeirlər səsləndirilir. "Şairsən, nəğməkarsan, demək əbədiyyətsən" adlı ssenarini sizlər üçün təqdim edirik. Səhnə yubiliyarın portreti və gül dəstələri ilə bəzədilir. Kəmalə Ağayevanın sitatı divardan asılır.

**"Bir gözəl şeir yazanda özümü dünyanın ən xöşbəxt adamı sayıram."**

**Kəmalə Ağayeva**

*Aparıcılar səhnəyə daxil olur:*

**I Aparıcı:** **Könül verdiyim ellər,**
**Gülün dərdiyim ellər.**
**Görəsən yerindəmi?**
**Mənim gördüyüm ellər?**

Bu gün milli ədəbiyyatımızda və teatrımızda mənzum dramların ilk qadın müəllifi, Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, Prezident təqaüdçü 20 şeir kitabının, 15 pyesin müəllifi, Azərbaycan Yazıçılar Birliyinin və Teatr

Xadimləri İttifaqının üzvü, şairə-dramaturq Kəmalə Ağayeva haqqında söz açacağıq. Kəmalə Ağayeva haqqında bunları demək yerinə düşər; xasiyyətindəki cəsarət və kövrəklik, həssaslıq və mülayimlik, təmkinlilik və coşqunluq onun yaradıcılığında qəribə bir vəhdət təşkil edirdi. Kəmalə xanımın şeirlərini oxuyanda qeyri-ixtiyari onun müəllifinin məhz xanım olduğu açıq-aşkar duyulur. Çünki bu şeirlərin ahəngində elə bir zəriflik, həssaslıq, həzinlik var ki, istər-istəməz bu ipək ovqatlı misraların ürək döyüntüsündə məhz qadın məhəbbətinin, həsrətinin döyüntüləri hiss edilir.

Kəmalə Ağayeva hansı mövzuya müraciət edibsə öz nəfəsi, öz duyğusu, öz deyim tərzi ilə fərqlənib. O, həmişə düşündüyünü deyib, vicdanının hökmünə sadiq olub, ötəri-keçəri vəziyyətlərə uyğunlaşmağa çalışmayıb. Həqiqi yaradıcılıq sevinci, iztirab və axtarışlarla dolu ömür yolu, xalqa və sənətə olan böyük sədaqəti onun həyat amalına çevrilib. Məhz bu xüsusiyyətlər onu xalqa sevdirib, ona şöhrət qazandırıb.

**II Aparıcı:** Gəlin, birlikdə Kəmalə Ağayevanın həyat yoluna bir qədər nəzər salaq .Müsahibələrinin birində demişdir:
“10 yaşımdan şeir yazırdım. Naxçıvanın bir şairəsi var, Heyran xanım, 6-cı sinifdə oxuyanda onun yaradıcılığını öyrənirdim. Mənə qəribə gəlmişdi ki, qadın da şeir yazarmış, ona görə də tam yaradıcılığı ilə tanış olmağa qərar verib oxudum. Bir də gördüm ki, qələmi alıb əlimə özüm də şeir yazmağa başlamışam. İlk şeirlərimi yazmağa belə başlamışam. İlk şeirimin adı “Bahar “ oldu.

**Gəlir sevimli şən bahar,**
**Uçub gəlir gözəl quşlar,**
**İnsanların ən sevdiyi,**
**Gözəl bahar, gözəl bahar.**

Atam da şeir yazan idi, Sabiranə şeirlər yazırdı. Mən bu barədə sonralar bildim, özüm artıq  şeirlər yazandan, çap olunandan sonra. Bir gün atam öz şeirlərini mənə göstərib dedi ki, mən satirik şeirlər yazıram, sən daha çox lirik üslubda işləyirsən. Məktəbdə biləndə ki, şeir yazıram, alıb divar qəzetlərinə verdilər. Sonra müəllimlərim göndərirdilər "Pioner" qəzetinə, başqa qəzetlərə. Heç bəzən özümün də xəbərim olmurdu.

Orta məktəbi bitirib Xarici Dillər İnstitutuna daxil oldum. Fransız dili üzrə təhsil alırdım. İnstitutda ədəbiyyat dərnəyi vardı. Rəfiqələrim xəbər verdilər ki, Kəmalə şeir yazır, məni də cəlb etdilər dərnəyə. Qızlardan incidim ki, niyə məni satdınız? Elə bilirdim  şeir yazmaq və üstəlik onu bəyan eləmək ayıb bir işdir. Dərnəkdə utandığımdan şeirlərimi oxuya blmirdim. Dərs danışmağa da utanırdım. Müəllim gedib pəncərənin yanında dururdu, deyirdi səsin bura çatmasa, əla danışsan da iki yazacam. Dərnəkdə də gördülər öz şeirlərimi demək istəmirəm, başqa bir qıza oxutdurdular mənim şeirlərimi. Qız şeiri deyib qurtaran kimi hamı qalxıb ayaq üstə alqışladılar və müəllifin səhnəyə çıxmasını tələb elədilər. Yaşımla şeirlərim tərs mütənasib idi, məni görən deyirdi ola bilməz ki, bu şeirləri belə bir qızcığaz yazmış olsun. Gördüm məni çağırırlar, inanmazsınız girdim kreslonun altına, boy-buxunum da balaca, məni tapa bilmədilər. Bundan sonra mətbuatda çap olunan ilk şeirim "Hilal olaydım" oldu.

**Ey hilal, hüsnünə salamlar olsun,**
**Dolan o göylərdə gözəlliyinlə,**
**Sən parla, hilallı axşamlar olsun,**
**Dol mənim ruhuma düzənliyinlə.**

Kəmalə Ağayeva müsahibəsinin sonunda qeyd etmişdir ki, oxucu heç kimə söyləmək istəmədiyi duyğularını, sözə çevirə bilmədiyi hisslərini oxuduğu şeirlərdə tapa bilirsə, onları mütləq sevəcək, dönə-dönə əzbərləyəcək.

Bəli, əziz tədbir iştirakçıları, bu gün biz şairə-dramaturq Kəmalə Ağayeva işığına yığışmışıq. Gəlin birlikdə Kəmalə Ağayevanın uşaqlar üçün yazdığı "Məlikməmməd" və "Göyçək Fatma" mənzum pyeslərindən bir hissəyə qulaq asaq.

*Səhnə nağıla uyğun dekorativ ağaclarla bəzədilir. Göyçək Fatma çəməndə oturub yun əyirir. İnək və Xoruz da onun yanındadırlar. Fatma qəmli-qəmli oxuyur.*

**Fatma:** Yetim qızam anam yox,
Bu dərdimi qanan yox,
Mən yanaram qəm ilə,
Heç halıma yanan yox.
Yetim qızam anam yox,
Ağlaram, hey ağlaram,
Dərdi pünhan saxlaram.
Həmdəm olan kimsə yox,
Mən qəmi qucaqlaram,
Ağlaram, hey ağlaram.

**İnək:** Ürəyimi şan-şan etdin,
Ağlama, Fatma, ağlama!
Sən məni pərişan etdin,
Ağlama, Fatma, ağlama.
*(Fatma onları tumarlayır)*
**Xoruz:** Ağlama, göyçək Fatma,
Saçları ipək Fatma!
Biz sənin dostlarınıq,
Sən deyilsən tək, Fatma.
**Fatma:** Ay, xoruzum, inəyim,
Dərdim, çoxdur neyləyim?
Söylənəcək kimsə yox,
Gəlin sizə söyləyim.
**Xoruz və inək:** Söylə, söylə Fatmacan,
Dinləyək axşamacan.
**Fatma:** Analıq döyər məni,
Çöllərdə qoyar məni.
Məgər nə günahım var?
Bacım da söyər məni.
**İnək:** "Ağlama naçar ağlama!
Gündür keçər, ağlama!
Qapını bağlayan tanrı,
Bir gün açar, ağlama!"
**Xoruz:** Ağlama, Fatma, ağlama.
Ağlama, Fatma, ağlama!

Fatma yumağını yerə qoyub, əllərini göylərə tutur və Allaha yalvarır.

**Fatma:** Allah, yalvarıram sənə,
Özün yardım eylə mənə.

Bu dəm güclü yel əsərək yumağını alıb aparır. Fatma yumağın dalınca, inək və xoruz da Fatmanın dalınca qaçmağa başlayırlar.

Yel baba, yel baba,
Yumağımı ver, baba!

**İnək:** A yel, insafın hanı?
İncitmə bu Fatmanı.
Yel baba, yel baba,
Sən yumağı ver, baba!

**Fatma:** Əgər onu verməsən,
Evə necə gedim mən?
Ögey anam döyəcək
Özün de, nə edim mən?
Yel baba, yel baba,
Yumağımı ver, baba!

Yel yumağı fırladıb evin bacasından içəri salır. Fatmagil çatıb qapını döyürlər. İçəridən qarı nənənin səsi gəlir.

**Qarı Nənə:** Kimdir o?

Qarı qapını açıb astanada oturur. O çox iyrəncdir. Fatma ədəblə salam verir.

**Fatma:** Yumağımı versənə
Salam, ay qarı nənə,
Yumağımı versənə.
Onu yel atdı bura,
Acıqlanma sən mənə,

**İnək:** Hə, yel onu oynatdı...
Axır bacadan atdı.

**Qarı Nənə:** Darıxma, gözəl qızım,
Bax, sənə var bir sözüm
Əgər baxsan başıma,
Yumağını verərəm,

Yaxşı qızsan, görürəm.
**İnək:** Fatma çox yaxşı qızdır,
**Xoruz:** Mehribandır, əzizdir.
*Fatma yaxın gedərək*
**Qarı Nənə:** İndi de görüm mənə,
Mənim başım qəşəngdir,
Yoxsa ananın başı?
**Fatma**: Yox, səninki qəşəngdir,
Bu bitlər, bu birələr
Necə də rəngbərəngdi!
**Qarı Nənə:** Sağ ol, ağıllı balam,
Bu sözündən xoşhalam.
İndi al yumağını.
*Fatma yumağını alıb sevinir. Qarının evinə, həyatinə nəzər salır.*
**Fatma:** Nənə, qoy otağını
Təmizləyim bir qədər.
**Qarı Nənə:** Ay sağ ol, mənim balam,
Allah köməyin olsun.
Həmişə bax beləcə
Yumşaq ürəyin olsun.
*Fatma süpürgə götürüb süpürür.*

**II Aparıcı:** Kəmalə xanımın nəzərində Vətənini və xalqını böyük ürəklə sevmək, onun tərəqqisinə çalışmaq hamının vicdanı borcudur. Onun poeziyasını seciyyələndirən xüsusiyyətlərdən biri də cəsarətli, ilhamlı yaradıcılq ruhunun hakim olmasıdır. O, pyeslərində zamanın, dövrün xüsusiyyətlərini, ətrini, rəngini saxlamışdır. Kəmalə xanımın yaradıcılığına yaxından bələd olanlar bir fikirlə razılıaşarlar ki, şairənin poeziyasında haqq sözün, daxili əqidənin, vicdani yaddaşın xeyir-duası var. Cəsarət və kövrəklik, həssaslıq və

mülayimlik, təmkinlilik və coşqunluq onun yaradıcılığında qəribə bir vəhdət təşkil edir.

Yuxarıda qeyd etdiyimiz kimi, Kəmalə Ağayevanın dramaturgiyası 60-cı illərdə, Azərbaycanın ilk qadın şairəsi Məhsəti Gəncəvinin həyat və yaradıcılığından bəhs edən "Məhsəti" mənzum faciəsi ilə başlanıb. Bu tamaşa böyük müvəffəqiyyətlə qarşılanaraq, teatr tənqidçiləri və ictimaiyyətin yüksək qiymətini alıb. Mirzə İbrahimov, İlyas Əfəndiyev, Cəfər Cəfərov, Mehdi Hüseyn, Abbas Zamanov və başqaları mətbuat səhifələrində dəyərli fikirlər söyləyiblər. Bundan sonra bir-birinin ardınca yazılan "Apardı sellər Saranı", "Mənim Tanrım gözəllikdir, sevgidir", "Kaman səsi", "Sirli sözlər", "Gərək çıraq haqdan yana", "Unudulan sözlər" və s. kimi mənzum pyesləri yarandı.

Oxucular səhnəyə daxil olur, "Bənövşə" şeirini söyləyirlər.

Bilməm pərimisən, ya ki gülmüsən?
Gəlmisən yurduma erkən, bönəvşə,
Bahar müjdəçisi sən deyilmisən?
Olmasın yanında tikan, bənövşə.

Sən müjdə olsan da qəmdir duruşun,
Naz ilə boynunu bükən bənövşə.
İstərsən, baharla olsun, görüşün,
Gözünü yollara dikən bənövşə.

Niyə boynubükük gəldin cahana?
Ayrılıq dərdini çəkən bənövşə.
Həm könül oxşarsan, həm qəmsən ona,
Hardadır sevdiyin məkan, bənövşə?

Neyləyim? Dərdinə nə çarə qılım?
Şəbnəm göz yaşını tökən bənövşə
Sənə düşəcəkdir hər zaman yolum,
Nə ağla, nə də ki, tükən bənövşə.

İstərəm hər zaman yanında qalam,
Mən sənin kimi təkəm, bənövşə
İstərəm hər zaman heyranın olam,
Beləcə nazını çəkəm, bənövşə.

Ey gözləri xumar, sevimli nigar,
Bahar həsrətini çəkən bənövşə.
Vədəsiz gəlmisən, üşüsən əgər,
Nə mən günahkaram, nə çən, bənövşə.

**I Aparıcı:** "Baharın sözü" adlı ilk şeirlər kitabı işıq üzü görəndən sonra şairə dramaturgiya sahəsində də qələmini uğurla sınaqdan keçirib, "Məhsəti" adlı 4 pərdəli mənzum faciəsi yazıb və bu böyük marağa səbəb olub. Şairənin sonrakı illərdə "Gül yarpağı", "Sən olmasaydın", "Arpaçayın nəğməsi", "Daş piyalə", "O dağlarda gözüm qaldı", "Tanrıya heyranam mən", "Apardı sellər Saranı", "Vətənə sevdalıyam", "Qönçələr", "Könül verdiyim ellər", "Əlixan məhəlləsi", "Ay-ulduzlu gülüstanım" adlı kitabları nəşr olunub, "Məhsəti", "Bir gül kimi" və "Sevdim Türkiyəni" kitabları isə Türkiyədə çap edilib. Əziz oxucu, Kəmalə Ağayevanın Naxçıvan Dövlət Musiqili Dram Teatrı və Naxçıvan Dövlət Kukla Teatrında göstərdiyi uğurlu fəaliyyətindən də bəhs etmək istərdik. Diqqətə çatdırmaq istərdik ki, həmin illərdə şairə-dramaturqun "İsmət", "Apardı

sellər Saranı", "Mənim Tanrım gözəllikdir, sevgidir", "Göyçək Fatma", "Tıq-tıq xanım", "Məlikməmməd" və "Sirli sözlər" kimi mənzum pyesləri tamaşaya qoyulub. Onun şeir və poemaları rus, belarus, gürcü, özbək, türkmən, türk, ingilis, alman, ispan, fransız və başqa dillərə tərcümə olunub. Kəmalə Ağayeva səhnələrdəki tamaşaları, efirlərdəki nəğmələri, dəyərli poeziya incilərini əks etdirən kitabları ilə daim xatırlanacaq. Şairənin sözlərinə müxtəlif bəstəkarlar tərəfindən bəstələnmiş mahnılar, bu mahnılardan bəzilərinin tarixçəsi də daima xatırlanacaq.

Ədəbiyyatımızın seçilən nümayəndələrindən olan Kəmalə Ağayeva mədəni irsimizi zənginləşdirməklə yanaşı, həm də istedadlı gənclərin aşkar olunmasında da misilsiz xidmətlər göstərib. Sahib olduğu zəngin bilikləri gənclərə ustalıqla çatdırmaq bacarığı olub.

Oxucular səhnəyə daxil olur. Dumanlı dağlar şeirini səsləndirirlər.

Sinəsi bulaqdan kamanlı dağlar,
Çalıb kamanını ağlarsan nədən?
Başı dumanlardan dumanlı dağlar,
Qəmli ürəyimi dağlarsan nədən?

Söylə, bu halınla bir ozanmısan?
Ya ki, sinələrə dərd yazanmısan?
Axı dünya boyu nə qazanmısan?
Məni öz yolumdan saxlarsan nədən?

Həmdəmin kimsəsiz çöllərdir sənin,
Yanıq nəğmələrin yellərdir sənin.

Min bir cəvahirin güllərdir sənin,
Hərdən sellərinlə çağlarsan nədən?

Sinəndə xəyallı bir mənzərə var,
Ayağın altında dərin dərə var.
Sənin o tayında bir xatirə var,
Getməyə yolumu bağlarsan nədən?

II Aparıcı: Kəmalə Ağayevanın qələmə aldığı "Məhsəti" pyesi Naxçıvan teatrında üçüncü dəfə 2007-ci ildə tamamilə yeni yaradıcı heyət tərəfindən tamaşaya qoyulmuşdur. Beləliklə, Məhsəti Gəncəvi obrazı artıq 70 ildən çoxdur ki, Azərbaycan səhnəsini bəzəyir. Bununla da Məhsəti öz rübailəri ilə bütün Şərq ədəbiyyatını zənginləşdirdiyi kimi, bu gün milli teatr və dramaturgiyamızın inkişafında da mühüm rol oynamaqda, sənətkar ömrünü yaşamaqda davam edir.
Bu mənada, şairə Kəmalə Ağayeva haqlı olaraq yazmışdı:

"Yox-yox o, ölməmiş, inanmıram mən,
Fəqət üz çevirmiş zəmanəsindən.
O, öz atəşiylə nura büründü,
Əsrin göylərində parladı, söndü,
Fəqət inanıram gələcək zaman
Onun göylərinin aydınlığından
Can alıb yuxudan o oyanacaq,
O ulduz parlayıb yenə yanacaq".

Şairə-dramaturq ulu öndər Heydər Əliyevə də silsilə şeirlər həsr etmişdir. Kitabda qeyd edildiyi kimi, bu şeirlərdə məhəbbət hissi yüksəkdir. Dahi rəhbərin unudulmaz xatirəsinə yazdığı

"Səni unutmarıq" şeirində ümummilli liderimizin heç vaxt unudulmayacağını, qəlblərdə əbədi yaşayacağını qələmə alır:

Bu gün ayrılığın yaşı bir ildir,
Amma unutmadıq bir an da səni,
Kədər ürəklərdən gedən deyildir,
İtirdik bir ağır zamanda səni.

Fəqət yad edirik səni vüqarla,
Çünki şərəfimiz, qürurumuzsan.
Özün yaratdığın bu xoş diyarda
Sabaha aparan uğurumuzsan.

"Nuh yurdunun heyranı" kitabında şairənin epik əsərləri-poemaları haqqında geniş söhbət açılır. Qeyd edilir ki, Kəmalə xanımın poemaları oxucunu özünə cəlb edir, birnəfəsə oxunur. Onun Böyük Vətən müharibəsindən qayıtmayan igidlərin xatirəsinə həsr etdiyi "Ürəklərdə qaldı adınız" poeması döyüşlərdə qəhrəmancasına həlak olan oğullarımızın lirik portretini canlandırmışdır:

Geri qayıtmayan siz, ey cavanlar,
Bu gün baş əyirik xatirənizə.
Aldı ömrünüzü odlu tufanlar,
Lakin bu ömürdür hər birinizə.
Nə qədər kədərli olsa da bu hal,
Sizin həyatınız olsa da xəyal,
Özünüz bizimlə yenə varsınız.

Şairənin "Gözü yolda qalan var" poeması 1994-cü ildə Ağdam döyüşlərində mərdliklə vuruşan Hacıqabul şəhidi Həmidağanın əziz xatirəsinə yazılıb. Poemanı qələmə alarkən Kəmalə xanım qəhrəmanın qəbrini ziyarət etmiş, onun yaşadığı evdə olmuş,

ömür-gün yoldaşı Təranə xanımla görüşmüş, ondan yadigar qalan övladlarının saçlarını tumarlamışdır.
"Nurun yayılıbdır bütün dünyaya" poeması ulu öndərimiz Heydər Əliyevin şərəfli ömür yolu haqqında sanballı dastandır:

Heydər memarıdır Azərbaycanın,
Hər daşda, torpaqda onun əli var.
Səsi hər yerindən gəlir dünyanın,
Onun Vətən boyda bir heykəli var.

Kəmalə Ağayeva Ümumittifaq ədəbiyyat tədbirlərində iştirak etmişdir: 1980-ci ildə Özbəkistanda Azərbaycan incəsənəti günlərində, 1982-ci ildə Vaqif poeziya günlərində, 1967-ci ildə Ümumittifaq yazıçılar qurultayında nümayəndə olmuşdur. 1994-cü ildə Fatimeyi-Zəhra həzrətlərinin mövludu münasibətilə keçirilən müsabiqədə birinci yeri tutmuşdur. Eyni zamanda 1984-cü ildə Fransada Azərbaycan günlərində və 1989-1990-cı illərdə Türkiyədə təşkil olunmuş Yunis Əmrə günlərində iştirak etmişdir. 1979-cu ildə sovet nümayəndə heyətinin tərkibində 20 gün ABŞ-nın Vaşinqton, Nyu-York, Çikaqo, San-Fransisko, Boston və Sietl şəhərlərində olaraq müxtəlif tədbirlərdə Azərbaycan şairi olaraq özünün vətənə, dostluğa, sülhə aid şeirlər ilə çıxışlar etmişdir.

Söz boyda dünyanın varı üzündə,
Çiçəkli baharı, barı üzündə,
İsməti, namusu, arı üzündə,
Bir Ana yaşadı bu yer üzündə!
Bayrağa döndərdi ucalığını,
Qələmlə qaladı söz ocağını,
Almadı boynuna qocalığını,
Bir Ana yaşadı bu yer üzündə!

Yaraşığı Günə, Aya bərabər,
Arzuları min bir çaya bərabər,
Söz atəşi “Aynalı”ya bərabər,
Bir Ana yaşadı bu yer üzündə!
Xəyalları səmalardan enmədi,
Günəş odu ürəyindən sönmədi,
Şeir adlı Vətənindən dönmədi,
Bir Ana yaşadı bu yer üzündə!
Uca etdi torpağını, daşını,
Qələmə çevirdi qan yaddaşını,
Apardı özüylə ömür yaşını,
Bir Ana yaşadı bu yer üzündə!
Bir nəslin, bir kökün budaqlarıydıq,
Şahbuzun gur çeşmə bulaqlarıydıq,
Kəngər babaların uşaqlarıydıq,
Bir Ana yaşadı bu yer üzündə!
Görüşlər, vidalar tərk etdi bizi,
İtirə bilmədi cığırı, izi,
Doğmalıq kövrəltdi hər ikimizi,
Bir Ana yaşadı bu yer üzündə!
Bu zalım dünyanın məzhəkəsi çox,
Dəhnəsi su sızan gölməçəsi çox,
Sirri bilinməyən bilməcəsi çox,
Bir Ana yaşadı bu yer üzündə!

**I Aparıcı:** Müstəqillik illərində Kəmalə xanım Muxtar Respublika rəhbərliyinin də diqqətindən kənarda qalmayıb. 1998-ci ilin yanvar ayında Bakıda, Dövlət Gənc Tamaşaçılar Teatrında 60 illiyi yüksək səviyyədə qeyd olunan görkəmli şair-dramaturqun yubileyi dekabr ayında, MR Ali Məclisinin Sədri

hörmətli Vasif Talıbovun xüsusi diqqəti və himayəsilə Naxçıvan Dövlət Musiqili Dram Teatrında böyük təntənə ilə keçirilib.

Görkəmli şair-dramaturq, pedaqoq və ictimaiyyətçi, tərcüməçi-publisist Kəmalə Ağa qızı Ağayeva 2019-cu il iyul ayının 18-də, 83 yaşında, qısa sürən xəstəlikdən sonra, Bakıda dünyasını dəyişib. Adı Azərbaycan ədəbiyyatı və milli teatr tariximizə mənzum pyeslərin ilk qadın müəllifi kimi əbədi həkk olmuş Kəmalə xanım səhnələrdəki tamaşaları, efirlərdəki nəğmələri, dəyərli poeziya incilərini əks etdirən kitabları ilə daim xatırlanacaq!

İstifadə olunan ədəbiyyat:


1. Kəmalə. Bir gül kimi. İstanbul, 2003.-116 s.
2. Kəmalə. Əlixan Məhəlləsi, Bakı, 2010.-207 s.
3. Kəmalə. Könül verdiyim ellər. Bakı, 2006.-235 s.
4. Kəmalə. Qönçələr. Bakı,“Nurlan”, 2005.-170 s.
5. Kəmalə. Məhsəti. Bakı, 2001.-413 s.
6. Kəmalə. Vətənə sevdalıyam. Bakı, “Nurlan”, 2004.-132 s.

# Şairsən, nəğməkarsan, deməkəbədiyyətsən

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Könül Səmədzadə**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: [www.clb.az](http://www.clb.az)**